# Şuşanın hər tərəfindən bir tarix boylanır

**Qarabağın baş tacı olan bu qədim və əsrarəngiz şəhərin hələ yetərincə araşdırılmamış və araşdırıcılarının yolunu gözləyən bir çox reallıqları, həqiqətləri var. Onlardan biri də Şuşanın məhəllələri və bulaqlarıdır. O məhəllə və bulaqların ki çoxunun tarixi bilinmir...**







## *Xoca Mərcanlı məhəlləsi, bulağı və məscidi*

Şuşanın bu bulağı da öz adını yerləşdiyi məhəllədən almışdı. Xoca Mərcanlı şəhərin mərkəzində yerləşən yuxarı məhəllələrdən biridir. Əsası XVIII əsrdə qoyulan Şuşanın ən qədim yaşayış məkanlarından hesab edilir. Belə ki, Xoca Mərcanlı məhəlləsinin tarixi şəhərin tarixi ilə üst-üstə düşür. Şuşanın digər məhəllələri kimi, Xoca Mərcanlının da öz bulağı və məscidi var idi. Bulaq Xoca Mərcanlı məscidinin yanında inşa edilmişdi.

Xoca Mərcanlı bulağı da erməni vandalizmindən zərər çəkdi. 1992-ci il mayın 8-də Şuşa işğal edildikdən sonra Xoca Mərcanlı məscidi və məhəllədəki digər tikililər dağıdıldı. Bulaq baxımsız vəziyyətə düşdü, suyu qurudu.

Artıq Ermənistan silahlı qüvvələrinin Şuşa işğalı tarixdə qalıb. Bu gün Azərbaycan Ordusunun zəfəri ilə azadlığına qovuşmuş ərazilərimizdə tikinti-quruculuq işləri aparılır. İşğalçıların izləri torpaqlarımızdan silinir, uçub-dağıtdıqları, yerlə-yeksan etdikləri tikililər yenidən ucaldılır. Şuşa da bərpa olunur, saf bulaqları yenidən çağlamağa başlayır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 24 iyun.- S.7.